# “Qərbi Azərbaycana qayıdış zamanın tələbidir”



**Kürdəxanı qəsəbəsindəki 113 nömrəli tam orta ümumtəhsil məktəbin X sinfində “Qərbi Azərbaycan əzəli və əbədi Azərbaycan torpağıdır” və “Mənim Qərbi Azərbaycanım” kitablarının təqdimatı açıq dərslə davam edib.**

Məşğələdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor, Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü Mahirə Hüseynova, Elm və Təhsil Nazirliyinin əməkdaşları – Rövşən Ağayev, Maral Salmanova, pedaqogika elmləri namizədi, dosent Dəyanət Musayev, məktəbin müəllimləri və şagirdləri, Qərbi Azərbaycandan olan bir qrup valideyn iştirak ediblər. Əvvəlcə Qərbi Azərbaycan TV-nin hazırladığı “Qərbi Azərbaycan xronikası” mövzusunda videoçarx nümayiş olunub.

Məktəbin direktoru Gültəkin Rüstəmova bildirib ki, bu gün Qərbi Azərbaycan irsinin, tarixi yaddaşının və mədəni kimliyimizin qorunması kimi son dərəcə önəmli mövzu ilə bağlı bir araya gəlmişik. Qərbi Azərbaycan minilliklər boyunca formalaşmış varlığımızın, milli yaddaşımızın və mədəni irsimizin rəmzidir.

Sonra açıq dərsi aparan Mahirə Hüseynova Qərbi Azərbaycanın tarixi ədalətsizliklərə məruz qalması, soydaşlarımızın doğma yurdlarından didərgin salınması, həmçinin bu torpaqlara qayıdışın milli hədəf kimi önəmi barədə söz açıb. Milli yaddaşın qorunmasının zəruriliyi, o, “Qərbi Azərbaycana Qayıdış” ideyasının yaşadılması və gələcək nəsillərə ötürülməsinin vacibliyini vurğulayıb.

Açıq dərsdə Prezident İlham Əliyevin bu mövzu ilə bağlı fikir və tövsiyələri, Qayıdış Konsepsiyasından irəli gələn məsələlər diqqət mərkəzində olub. Bildirilib ki, Qərbi Azərbaycan məsələsinin gənc nəslin milli kimliyinin ayrılmaz hissəsinə çevrilidiyini nəzərə alaraq, şagirdlər arasında əzəli yurd yerimizin tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, toponimləri, folkloru haqqında maarifləndirmə işləri aparılmalıdır.



İnteraktiv formada aparılan məşğələdə şagirdlər mövzuya böyük maraq göstəriblər. Məktəbin rəhbərliyi və müəllimləri, valideyinlər çıxış edərək dərsin müasir tələblərə uyğun şəkildə aparılmasına görə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Yazıçılar Birliyinin üzvləri Mahirə Hüseynova və Rövşən Ağayev məktəbin kitabxanasına müxtəlif mövzularda, o cümlədən ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin fəaliyyəti ilə bağlı kitablar hədiyyə ediblər.

Sonda məktəbin həyətyanı sahəsində ağacəkmə aksiyası keçirilib.

***XQ***